**Türk dünyasının döyünən ürəyi Bakıya göz dikən, onu işğal edib burada hakimiyyətini sürdürməyə iddialı olanlar çox olub. Tarix bələlərini çox əzib yola salıb, Bakı yenə də Türk dünyasının ürəyi kimi yaşayıb.**

# 102 il əvvəl Bakı daşnak-bolşeviklərdən azad edilməsəydi... Bir gündən başlayan möhtəşəm tarixdə İlham Əliyev-Ərdoğan tandeminin rolu...

## *Faiq Ələkbərli: "Bakı xilas edilməsəydi..."*

102 il bundan əvvəl Bakını daşnak-bolşevik birləşməsinin işğalından xilas edən qəhrəman Qafqaz İslam Ordusu böyük bir tarix yazıb, unudulmaz bir tarix. Bu tarix illər keçdikcə zənginləşir, öz əhəmiyyətini daha da artırır. Milli dövlətçilik tariximizə 15 sentyabr Bakının qurtuluşu günü kimi düşüb. Tarixən ənənəviliyə, milli-tarixi dəyərlərə, sarsılmaz bağlara sahib olan və bu dəyərləri qoruyan, inkişaf etdirən böyük Türkiyə və Azərbaycan dövlətləri 15 sentyabrı bizim birliyimizin, həmrəyliyimizin simvoluna çeviriblər.

15 sentyabr Türkiyə-Azərbaycan birliyinin, Türkiyə-Azərbaycan qardaşlığının əbədilik, sarsılmazlıq rəmzidir. Bu tarix Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini aydın əks etdirir.

Tarixçilər qeyd edirlər ki, Bakının daşnak-bolşevik birləşməsindən azad edilməsinin 100 illiyi münasibətilə 2018-ci ildə paytaxtımızın Azadlıq meydanında möhtəşəm parad keçirilməsi, burada Prezident İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirak etməsi bizim əbədi birliyimizin önəmli gücünü göstərir.

Tarixçilərin dediyinə görə, bu paradın keçirilməsinin özü böyük tarixi hadisədir və paradda Türkiyə Silahlı Qüvvələrinin "Türk ulduzları"nın uçuşlar etməsi, səmada Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəkli çəkməsi özü birliyimizin gücünü göstərən amillərdən biridir. Paradda Türkiyə Silahlı Qüvvələrinin məşhur "Mehtəran" birliyinin "Mehtər marşı"nın sədaları altında Azadlıq meydanına daxil olması da bizə böyük qürur yaşadıb.

Ekspertlər bildirirlər ki, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə hərbi təlim keçirilir.

Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın bu yaxınlarda Prezident İlham Əliyevlə görüşündə Tovuz hadisələri kontekstində səsləndirdiyi "Türkiyədə 83 milyonluq xalqın nəbzi Azərbaycanla döyünür. Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik" fikirlərini də mütəxəssislər qardaşlığımızın əsl nümunəsi kimi dəyərləndirirlər.

Tarixçilər vurğulayırlar ki, qədirbilən Azərbaycan xalqı Nuru paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun bu köməyini heç vaxt unutmur, şəhidlərin əziz xatirəsini uca tutur. Bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlib və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilib. Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə Bakını azad etməsi o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək, bugünkü müstəqilliyinin təməlini qoyub.

Bildiyimiz kimi, Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkə yenə Türkiyə olub. Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəmərləri, Bakı-Tiflis-Qars dəmir yolu, TANAP, TAP kimi birgə layihələr bütün regiona töhfə verir. Azərbaycan Türkiyədə, Türkiyə isə Azərbaycanda ən böyük sərmayədarlardan biridir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycanla Türkiyə qədər bütün mənalarda doğma, yaxın, qardaş olan ikinci bir dövlət yoxdur. "Şübhəsiz ki, Qafqaz İslam Ordusunun 102 il bundan əvvəl Bakını daşnak-bolşevik işğalından azad etməsi tariximiz üçün çox böyük əhəmiyyət daşıyır. Xüsusən də bu hadisə Azərbaycan tarixində bir dönüş nöqtəsi hesab edilməlidir. Əlbəttə, Bakı xilas edilməsəydi, bizi çox böyük faciələr gözləyərdi.

Məhz sentyabrın 15-də Bakının daşnak-bolşevik birləşmələrindən azad olunması, daha sonra Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtının Bakı şəhərinə köçürülməsi, sözün açığı, Azərbaycan üçün çox önəmli hadisə olmaqla yanaşı, region üçün də böyük əhəmiyyətə malik olub. Bakı şəhərinin işğaldan azad edilməsi yalnız siyasi anlamda deyil, eyni zamanda, sosial-iqtisadi anlamda da çox böyük əhəmiyyət daşıyırdı. Şübhəsiz ki, Bakının məhz Qafqaz İslam Ordusu, həm Türkiyə və həm də Azərbaycan əsgərlərinin birgə iştirakı ilə azad olunması da çox mühüm faktdır. Bu, əslində, əsrlərdən gələn Azərbaycan-Türkiyə qardaşlığının bir nümunəsi və davamı idi.

O vaxt Azərbaycan Cümhuriyyətinin qurucusu, başçısı, milli ideoloqu Məhəmməd Əmin Rəsulzadə bu hadisəni çox mühüm hadisə kimi dəyərləndirib və Bakının işğaldan azad olunmasını Azərbaycan tarixi, Azərbaycan Cümhuriyyəti üçün çox önəmli hesab edib. O hesab edirdi ki, məhz Azərbaycan və Osmanlı (Türkiyə) əsgərlərinin bir yerdə Bakı şəhərini işğaldan azad etməsi həm də bizim hərbi birliyimizin, türk xalqlarının birliyinin bir örnəyidir. Oktyabrın əvvəllərində Nuru Paşanın şərəfinə verilən ziyafətdə hətta o, çıxışında deyirdi ki, əslində, bununla da Turan ordusunun toxumları səpilmiş, türk dövlətlərinin birliyinin təməli qoyulub. M.Ə.Rəsulzadə çox haqlı idi. Çünki Azərbaycan və Osmanlı əsgərlərinin Qafqaz İslam Ordusunda Bakı şəhərini daşnak-bolşevik işğalından azad etməsi qardaşlığımızın, birliyimizin praktiki nəticəsi idi. Təbii ki, məhz bu hadisə sonrakı dönəmlərdə Azərbaycanla Türkiyə arasındakı əlaqələrə, birliyə çox mühüm təsir göstərdi".

Bakının işğaldan azad edilməsində Nuru Paşanın misilsiz rolu olduğunu deyən F.Ələkbərlinin sözlərinə görə, onunla yanaşı, Həbib bəy Səlimov, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski və başqa Azərbaycan, Türkiyə komandanlarının mühüm rolu olub. "Əlbəttə, fikrimcə, bu tarixi hadisə sonradan Mustafa Kamal Atatürklə Nəriman Nərimanovun münasibətlərində də çox mühüm yer tutub, onlar da bu birliyi davam etdiriblər. Eyni zamanda, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra görürük ki, Azərbaycanla Türkiyə tərəfindən bu birlik davam etdirilib, bu gün də etdirilir. Xüsusilə də Azərbaycan Cümhuriyyətinin 100 illiyi tədbirləri çərçivəsində Bakının daşnak-bolşevik birləşməsinin işğalından azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paradda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyevin bir yerdə iştirak etməsi, bu ildönümü birgə qeyd etməsi təsadüfi deyil. Azərbaycan Prezidenti İlham Əliyevlə Ərdoğanın belə mühüm tarixi gündə bir yerdə olması bizim birliyimizin daha da sarsılmaz olduğunun göstəricisidir və bu amil bizim birliyimizi daha da gücləndirir. 15 sentyabr Azərbaycan və Türkiyə üçün mühüm əhəmiyyətə malikdir. Bu, bir növ, bizim yeni dövrdə qoyulmuş təməl daşımızı daha da gücləndirir. Yəni istər hər iki dövlət başçısının Heydər Əliyevin məşhur "Bir millət, iki dövlət" şüarı altında birliyimizi daha da gücləndirməsinə verdiyi töhfələr, istər ordularımızın bir yerdə parad keçirməsi (necə ki, 1918-ci ildə Azərbaycan və Osmanlı əsgərləri bir yerdə Bakını işğaldan azad edib), istərsə də hərbi sahədə birliyimizin daha da gücləndirilməsi çox mühüm amillərdir. Xüsusilə də bilirik ki, Qafqaz İslam Ordusunu 11 min Azərbaycan və Türkiyə əsgəri bir yerdə formalaşdırıb. Son zamanlar da Qafqaz İslam Ordusunun rəmzi olaraq 11 min Türkiyə əsgərinin Azərbaycana gəlməsi, bizim əsgərlərlə birgə hərbi təlim keçməsi çox önəmlidir. Bu, birliyimizin daha da gücləndirilməsi və yeni mərhələyə qədəm qoyması üçün çox mühümdür. 15 sentyabrın Türkiyə və Azərbaycan xalqları arasında bir bayram şəklində qeyd edilməsini mühüm hesab edirəm. Bakının işğaldan azad olunması bizim üçün həm də simvolik, rəmzi bir birlik bayramı günü olaraq Türkiyə-Azərbaycan münasibətlərini daha da irəliyə aparar".

Ekspert hesab edir ki, bu tarixi gün Türkiyə-Azərbaycan qardaşlığının simvolu olmaqla yanaşı, həm də digər türk dövlətlərinin də birliyini ehtiva etməlidir. "Bu istiqamətdə düzgün addımlar atılır. Azərbaycan və Türkiyə ordusunun birgə təlim keçirməsi, iqtisadi-sosial anlamda bir çox layihəyə imza atılması bu qardaşlıq əlaqələrini daha da irəliyə aparır. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstanın, eləcə də Rusiya Federasiyasında və başqa ölkələrdə mövcud olan muxtar türk respublikalarının bu prosesə cəlb edilməsi zəruridir. Çünki onlar da gələcəkdə bu birliyin daha da güclənməsinə yardım edə bilərlər" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***



*"Azərbaycan Prezidenti İlham Əliyevlə Ərdoğanın belə mühüm tarixi gündə bir yerdə olması bizim birliyimizin daha da sarsılmaz olduğunun göstəricisidir"*

## Səfir Erkan Özoral: "Türkiyə və Azərbaycan olaraq ətrafımızdakı atəş halqasına qarşı eyni əzmlə mübarizə aparmaqda qərarlıyıq"

**15 sentyabr - Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasının 102-ci ildönümü ilə bağlı Bakı Türk şəhidliyində anım mərasimi keçirilib.**

"Trend"in məlumatına görə, mərasimdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və Azərbaycan rəsmiləri iştirak edib.




E.Özoral deyib ki, 15 sentyabrda Bakının işğaldan azad edilməsi ilə qazanılan bu zəfər tək bugünkü müstəqil Azərbaycana yol açmayıb, eyni zamanda Azərbaycan və Türkiyə üzərində qurulmaq istənilən oyunların sonunu gətirib: "Türkiyə və Azərbaycan olaraq bu gün ətrafımızdakı atəş həlqəsinə qarşı eyni əzm və iradə ilə mübarizə aparmaqda qərarlıyıq. Hər zaman olduğu kimi bundan sonra da "iki dövlət, bir millət şüarı" ilə irəliləyəyərək gələcəyimizi birlikdə qurmaq istiqamətində davam edəcəyik. Bakının Qafqaz İslam Ordusu və Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsinin 102-ci ildönümündə Nuru Paşanı, hər bir əsgəri, Azərbaycan Ordusunun hər bir qulluqçusunu hörmətlə anıram".

Azərbaycanın Türkiyənin Şərqi Aralıq dənizi ilə bağlı mövqeyini dəstəkləməsi Ankaraya güc verir. Bunu da jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.

Səfir deyib ki, Türkiyə Azərbaycanın dəstəyi ilə fəxr edir: "Qardaşlarımızdan gözləntimiz də bu idi. Pis günlərdə, yaxşı günlərdə bir-birimizin yanındayıq. Biz bir millət, iki dövlətik.

Türkiyənin Şərqi Aralıq dənizi ilə bağlı mövqeyi beynəlxalq hüquqa, haqlarımıza və mənfəətlərimizə əsaslanır".